AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 66, №1, səh. 178-183 (2011)

Etikadan Bioetikaya Doğru Yol: Yeni Düşüncə Tərzinə, Mərhəmətə və Xeyrxahlığa Çağırış

M.T. Abbasova, Ş.M. Hacıyev*, T.M. Ağayev
AMEA-nın A.İ. Qarayev adına Fiziologiya İnstitutu, Şərifzadə küç. 2, Bakı, AZ 1100,
**E-mail: azinphys@science.az*

İşin məqsədi antik dövrdən müasirliyə qədər fəlsəfədə və ictimai fikirdə etik baxışların təkamülü və əsas qayəsi. vahid elm sistemində etikanın yeri və əlaqələri, böyük mütəfəkkirlərin insanlarda və cəmiyyətdə görmək istədikləri əxlaqi-mənəvi dəyərlər, etik əsaslar üzərində bioetikanın meydana gəlməsini şərtləndirən səbəblər, bu yeni elmi-praktik sintezin mahiyyəti və inkişafı haqqında bilgiləri, nəzər-diqqətə çatdırmaqdır. Məqalədə bioetik konversiyasının müasir cəmiyyət üçün əhəmiyyəti, xeyrxahlıq və mərhəmət ideologiyasının hər bir kəs üçün vacibliyi, təcrübi biologiya və biotibb sahəsində aparılan və heyrət doğuran fundamental tədqiqatlarda bioetik prinsip və normaların gözlənilməsinin zəruriliyi məsələləri ön planda qoyulub.

Fəlsəfədə əxlaq, etika təlimlərinin ilk yaradıcıları antik dövrün böyük mütəfəkirləri – Qərbdə Sokrat, Hippokrat və Aristotel, Şərqdə isə Li Er, Konfusi və Budda sayılır (Иванов, 1988). Sokrat insan əxlaqı və mənəviyatı haqqında öz müdrik baxışları ilə tarixə düşüb. O, insanları, xüsusilə də cavanları kobud ehtiraslardan və şər əməllərdən qaçmağa, ədaləti, mərifəti, müdrikliyi, mərhəmət və xeyrxahlığı üstün tutmağa, qanuna pərəstişliyi və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çağıran ilk böyük moralist, öndər əxlaq nəzəriyyəçisi olub. Sokratdan bu yana qədim yunanlar arasında böyük təbib Hippokratın adı da çox məşhur idi. Hippokrat tibb tarixində təbibliyin ilk etik kodeksi yaradıb. “Hippokratın andı” kimi şöhrət tapan bu tibbi kodeks müasir dövrdə də həkimlər üçün nümunəvi olan çox ciddi tezislər irəli sürmüşdü (Орлов, 2005).

Aristotel fəlsəfədə elmi etika qolunun əsl yaradıcılarından olub. O böyük filosof və universal mütəfəkkir kimi məşhurlaşanda etika haqqında düşüncələrini nəsilli təbiblər ailəsindən çıxmış və Makedoniya şahı yanında saray həkimi olmuş atası Nikomaxa həsr etdiyi “Nikomaxın etikası”, adlı əsərində habelə “Böyük etika”, “Evdemin etikası” traktatlarında əks etdirib. Aristotel etikanı mücərrəd bir formada təsvir etmirdi, onu cəmiyyət və insanlar xüsusilə də ağıl və kamala çatan insanlar, üçün gərəkli olan həyatı təlim, həkimlik peşəsi, xeyrxahlıqlar kodeksi ilə sıxı bağlı olan, əməli hərəkət və fəaliyyət üçün zəruri hesab edilən fundamental, məfkurəvi insan davranışını idarə edən qayda və qanunlar məcəlləsi kimi qələmə verirdi (Богомолов, 1985).

Sonrakı dövrlərdə elmlərin təsnifatlarını yaradan filosof və alimlər etikanı o vaxtlarda inkişaf edən və dəbdə olan əsas fənnlər sırasında yerləşdirirdi. Məsələn, filosof Gassendi məntiq və fizikadan sonra elmin klassifikasiyasına etikanı salmışdı. Kantın fəlsəfəsində etika xüsusi yer alır və onu çox yüksəyə qaldırır. Hegel elmləri məntiq, təbiətin fəlsəfəsi və ruhun fəlsəfəsi kimi bölmələrə ayırır, etikanı axırıncının onun tərkibinə daxil idi və mənəviyyat konsepsiyasını inkişaf etdirir (Гусейнов, 1985).

Elmlər sistemində etik biliklərin, yəni inkişafı və xüsusi əhəmiyyəti nəzəri və praktik, eləcə də ideoloji baxımından həm klassik, həm də müasir humanitar ədəbiyyatda geniş surətdə araşdırılıb, bəziləri etikanı-əxlaq haqqında elm-fəlsəfənin humanistik dəyər problematikası səviyyəsinə qaldırır, mənəvi münasibətləri öyrənən xüsusi ictimai şüur növü kimi xarakterizə edir. Cəmiyyətdə əxlaq insanın ən güclü fərdi və ictimai qüvvələrindən, ən dəyərli sosial keyfiyyətlərindən (xassələrindən) biri olduğu əksər etiklər üçün şübhəsiz və təkzib olunmaz idi. Etikada insanın insana münasibəti əsas predmet sayılırdı və belə düşünənlər indi az deyil. Onu da qeyd edirdilər ki, etik biliklərə sahib olmaq və həyatda onlardan bəhrələnmək bəşər tarixinin bu və ya digər dövründə əxlaqın keyfiyyət durumu-etik biliklərin obyektiv aspekti ilə müəyyənləşir. Əxlaqın tarixi inkişafı kimi, bir tərəfdən insan fərdlərinin bir-birilə içtimai bağlılığı digər tərəfdən onların fərdiliyi və şəxsiyyəti fonologiyası ilə qırılmaz əlaqədə görənlər də olub. Antik yunan fəlsəfəsinə qayıdanda görmək olar ki, o dövrdə idrak insandan daha çox təbiətə yönəlmişdi və onu yad bir aləm kimi deyil insan ilə həmahəng əlaqədə olan bir aləm kimi qəbul edilir, təbiəti, dünyanı dərk etmək insanı dərk etmək qədər əhəmiyyətli görünürdü. Sokratın “Özün özünü dərk et!” – kəlamı, Heraklitin “İnsan təbiətlə birgə olmalıdır” – kəlamı ilə necə də məntiqi bağlıdır.

İnsanın həyat tərzi (və ya insanın fərdiliyinin və ictimai mahiyyətinin birliyi) həmişə göstərici-nümunəvi dəyərlərdən biri sayılıb. Hələ Platon

insanı həyat tərzi problemini mənəviyyatın mütləq varlığı problemi kimi şərh etməyə çalışırdı. Onun fikrincə, xeyrxahlıq heç də bir nəfərin məziyyəti deyil, ona bənd olsa da və ya olmasa da, hər kəs ona ya az, ya da çox zülüm verir, bu isə onu seçən adamın günahıdır, burda allah günahsızdır. Həyatda və öləndən sonra da xeyrxahlıq insan üçün ən vacib seçimdir. Platon etikanı elmi predmet səviyyəsində görməsə də, Aristotel etikanı ayrıca elm hesab edib və bu fikir müasir etiklər və elm təsnifatçıları tərəfindən də birmənalı qəbul edilib. Bir sözlə, etikanın fəlsəfi, humanitar, sosial-psixoloji bir anlam kimi inkişafı və təsdiqlənməsi istər keçmiş, istərsə də indiki cəmiyyətlər üçün həyatı bir zərurət idi. Hələ Rim mədəniyyəti dövründə də insani həyat tərzi mənəviyyat problemi hesab olunurdu. Rimlilər mənəvi həyatı şəxsi yaradıcılıq kimi başa düşür və onun hüquqi-inzibati tərəflərini də araşdırıb qanuna salırdılar. Orta əsrlər, xüsusilə də Şərq və Qərb İntibahı dövrləri etik cəryanların rəngarəngliyi və həyatda bərqərar olması tendensiyalarının güclənməsi ilə də xarekterizə olunur. Şərq mədəniyyətində mənəvi-əxlaqi aspektlər əsrlər boyu müdriklərin, mütəfəkkir-filosof və alimlərin, böyük poeziya və nəsr ustadlarının düşüncə və amallarında öz məxsusi yanaşma və təhlil formalarını tapmışdır. Şərqin etika təlimlərində xeyr və şər əxlaqı şüurun bir növ qiymətləndirici-normativ kateqoriyasına çevrilir. Etika və ümumiyyətlə fəlsəfə, eləcə də bədi yaradıcılıq tarixində xeyr və şərin izahatları birmənalı olmayıb, müxtəlif baxışlar (materialist, idealist, dini, naturalist, qedonik,evdomonik, utilitar və s.) mövqeylərdən verilib, əsrdən əsrə, xalqdan xalqa, cəmiyyətdən cəmiyyətə dəyişilib, bir sıra hallarda isə bu interperitasiyalar ziddiyətlərlə dolu olub (Урбаниева, 1988).

Qədim Çində etika təlimləri əsasən Li Er və Konfusi fəlsəfəsindən irəli gəlirdi. Li Er hesab edirdi ki, insanları bilmək və eyni zamanda özünü bilmək, öz qüsurlarını aradan götürməyi bacarmaq lazımdır. Xoşbəxtlik və bədbəxtlik, birincinin ikinciyə çevirilməsi müəyyən şəraitlərdə baş verir, odur ki, insan öz davranışında ölçü və meyar bilməlidir, bu halda xoşbəxtliyin bədbəxtliyə keçməsinin qarşısı alına bilər. Konfusiyə görə hakimiyyətdə ən ləyaqətlilər olmalıdır, hökumətin mənəvi nüfuzu zəruridir, o xalqın etimadını doğurmağı bacarmalıdır, əks təqdirdə dövlət xalqa mənəvi bir dayaq kimi uzun yaşaya bilməz. Əgər insan öz həyatında düzgün prinsiplərə əməl etməsə, ondan müsbət heç nə gözləmək olmaz. İnsan üçün insanpərvərlik, insanlıq, humanistlik böyük mənəvi dəyərlərdir, bu dəyərlər ilk növbədə ata və oğullar, qardaş və bacılar, dostlar, məmurlar və hökmdarlar arasında bərqərar olmalıdır. Özünə arzu etmədiyini başqasına arzu etmə, başqasına zorən təsir etmə, idarəçiliyin güclü elementi nəzakətdir, idarə etmək isə düzgün hərəkət etmək deməkdir (Мусский, 2000).

Şərq etik fikrində Buddanın (Siddxartxa Qaytama) da xüsusi yeri var. Buddizm təliminə görə insanın ruhi, mənəvi həyat qanunu, onun mahiyyəti "dörd əlvan həqiqətdədir" - dünyada əzab var və hər şey əzabdan keçir, əzabı doğuran səbəblər və əzabdan qurtuluş yolları var. Bu həqiqətləri özünə həyat proqramı kimi qəbul edənlər mənəvi ucalığa çatırlar. İnsanın davranış xətti, onun əməlləri, mənəvi xəzinəsi hər kəsə aid olan və hər kəsin başa düşdüyü xeyrxahlıqlardan ibarət olmalıdır. Əsas xeyrxahlıqlar isə Buddaya görə bunlardır: həyatın mənasını dərketmə, yalan mühakimələrdən uzaqlaşma, zorakısızlıq, başqasına xətər yetirməmək, əxlaq sərhədlərini gözləmək, öz idarəsini başqasına diktə etməmək, ehtirasları boğmağı bacarmaq (Мусский, 2000).

Ərəb mədəniyyəti islam dini etikanı çox yüksəyə qaldırır, insanların yaşam tərzinin bir sıra vacib prinsip və qaydalarını irəli sürür və təbliğ edir. Böyük ilahiyyət kitabı olan Quranda verilən 12 etik hökmdə göstərilir: etiqadı pozuq olan fərd və cəmiyyətdən xeyr yoxdur, ata-anaya hörmət və itaət insanı vəzifələrinin başında durur, öz insani haqqını başqaları ilə bölüşməmək ən böyük günahdır və ədalətdən ayrılmaqdır, insan qanını tökmək ən böyük günahdır, insanın həyatı və mədəni səviyyəsi həyat təhlükəsizliyi ilə ölçülür, sərvət və mövqe sahibi olmaq insanı dəyişdirməməlidir, insan ağıl və mühakimə işığıyla hərəkət etməlidir.

Orta əsrlərin Şərq və Qərb, Avropa və Asiya mədəniyyətləri ümumi etika, peşə etikası, xüsusilə də həkimlik etikası ilə bağlı məsələləri yenidən, daha konkret mənada dilə gətirir. İbn-Sina (Abisenna), İbn-Rüşd (Averroes) kimi ümumi bəşəri, tibbi və fəlsəfi ideyaların böyük təmsilçiləri rasionalist-praktik etik prinsipləri və əməllər barədə çox qiymətlə fikirlərlə çıxış edirlər. Böyük alim və təbib İbn-Sinanın "Səfa kitabı", "Göstəriş və məsləhətlər kitabı" və nəhayət "Təbiblik elmin qanunu" kitabı nəinki Yaxın Şərqdə, hətta Mərkəzi Avropada təbibliyə və təbiblik etikasına dair qiymətli əsərlər kimi tanınılır. İbn-Rüşd etikanı, fəlsəfə, din və tibb üçlüyünü birləşdirən konseptual körpü qismində görür. Yaxın Şərq eposlarında, xalq folklyoru və böyük poeziya nümunələrində dərin əxlaqı-mənəvi sifətlər dönə-dönə tərənnüm edilir, böyük insani nəsihətlər verilir, özünü aparma qaydaları göstərilir. Dahi şair və filosofu Nizami Gəncəvinin "Sirlər xəzinəsi", məşhur astronom və filosofu Nəsrəddin Tusinin "Əxlaqı-Nasiri" əsərlərində söylənilən dərin etik fikirlər etik təfəkkürün, əxlaqı-mənəvi dayaqların o dövrlərdə və sonrakı zamanlarda cəmiyyətdə möhkəmlən-

məsinə xidmət göstərmişdir.

Avropada Böyük İntibah dövrü başlanır. Təbiətə, insana və onun tərbiyəsinə baxışlar daha konkret və dəqiq məcralara yönəlir, böyük maarifçi-filosoflar və humanistlər elitası yaranır, Con Lokk, Benedikt Spinoza, Fransua Bolter, Jan Jak Russo, Deni Didro, Ditrix Qolbax, Sen-Simon və başqa bu kimi intibaha gedən Avropa mədəniyyətinin elitar nümayəndələri təbiətlə insan, insanla insan, ailə və cəmiyyət, savadla davranış arasında olan incə və təsirli əlaqələr, onların əxlaqı, etik və estetik tərəfləri barədə pasional, paraqmatik və liberal fikirlərlə çıxış edirlər. Klassik Avropa mədəniyyəti naturalist psixoligizm, relyatirizm, ekzisten-sializm, utilitarizm, əxlaqı sərvətlər nəzəriyyəsi, həyata pərəstiş etikası kimi yeni fəlsəfi-etik yönlü cərəyanlarla üz-üzə gəlir. Bu dövrün böyük simalarından biri olan filosof İmananuil Kantın etika barəsində fikirləri diqqəti daha çox çəkir. İ.Kant "Gözəlliyin və ucalığın duyulması üzərində müşahidələr" (1764), "Mənəviyyatın metafizikasının əsasları" (1785), "Prakтik ağlın tənqidi" (1788), "İnsan təbiətində əzəli şər haqqında" (1792), "Vərdişlərin metafizikası" (1797) kimi əsrlərində etik problemləri üzərində dayanır, onları həll etməyə çalışır. Kant etikasının mərkəzi prinsipi borc və vəzifə anlayışına əsaslanan katerorik imperativdir. İnsan şəxsiyyət kimi təbiət qanunlarından aşağıda durur, xarici aləmin təsiri altındadır, o azad deyil, amma öz dərkedici xarakterinə, fərdiliyinə görə, azaddır və öz praktik ağıl və düşüncə dalınca gedir. Kant əxlaq qanununu belə ifadə edir: "Elə hərəkət et ki, istənilən vaxt iradənin maksimi ümumi qanunvericilik üçün prinsip olsun". Yəni səadətə, zahiri firavanlığa doğru çalışmaq, sevgi və ya simpatiya insanı əxlaqi etmir, yalnız əxlaqı qanuna hörmət, vəzifə və borca sadiklik onu əxlaqlı edir, mənəviləşdirir. İnsan özünü əsl insan kimi aparmaq və öhdəçiliyə daima əməl etmək onun borcudur, vəzifəsidir. İnsan yalnız tərbiyə vasitəsilə insan ola bilər. Tərbiyə onu necə edirsə, o da elə odur. İnsanda çox mühüm keyfiyyət özünün özünə olan borcdur, o əvvəlcə öz sağlamlığı və həyatı qeydinə qalmalıdır. İnsanda çox pis qüsurlar özünə qəsd, sərxoşluq və qarınqulu**l**uqdur. Xeyrxahlıqlar isə bunlardır: düzgünlük, vicdan təmizliyi, səmimilik, insaf, ləyaqət.

XVIII-XIX əsrlər fəlsəfədə, sosiologiyada və psixologiyada ümumi baxışlardan konkret məsələlərə keçid daha böyük vüsət alır, elmin şaxələnməsi sürətlənir, təbiət elmləri misli görünməmiş nailiyyətlər qazanır, canlı təbiətin sirlərinin dərk edilməsində yeni mərhələ başlanır. Bir sıra etik baxışlar buna komplimentar olaraq uyğunlaşdırılır. Kantdan sonrakı etikada utilitarizmə meyl çox güclənir. Utilieтarizm İ.Bentamin "Əxlaq haqqında elm və ya deontologiya" əsərində (1823) mühüm yer tutur. Utilitar (latıca utilitar - fayda, xeyr deməkdir) təlim faydalılıq prinsipini qabağa çəkir, onu sosial hadisələri və insani əməlləri qiymətləndirmə meyarı kimi qəbul edir. Faydalanmaq, həzz almaq və bu yolla səadətə çatmaq Bentamın etikasında həm də mənəvi, əxlaqı əsas kimi yer alır, "daha çox insanlara daha çox xoşbəxtlik " mənəvi ideal sayılır, fərdi (şəxsi) maraqlar yeganə maraqlar hesab edilir, onları ümumi maraqlardan üstün tutulur. Bu dövrdə etikanı mücərrədlikdən konkretliyə, ümumilikdən xüsusiliyə, praktik həyat çalarlarına salmaq, vahid elm sistemində onun məxsusi yerini təyin etmək, sosial əhəmiyyətini yüksəltmək tendensiyaları güclənir. Etikada əvvəlki mücərrəd fəlsəfi, teoloji, evdomonik və utilitar baxışlar daha obyektiv, insan həyatının və ətraf təbiətin xislətinə müvafiг ola biləcək yeni mühakimələrlə əvəzlənirdi. Böyük filosof Hegel israr edirdi ki, mənəviyyat haqında elm əvvəlcə cəmiyyətdə mənəviyyatın zəruriliyini sübut etməlidir. Hegelə görə, hər cür mənəvi "ideyalar", "hunanizm" barədə gedən söz-söhbətlər dayaz və əxlaqsız tafalogiyadan başqa bir şey deyildir. Sonralar etikada əxlaqı sərvətlər nəzəriyyəsi-aksiologiya – özünə yer alır. Əxlaqı sərvət, əxlaqı nemət nədir? – suala cavab vermək, bu dövrün etik-fəlsəfi, psixoloji, sosioloji və pedoqoji baxışlarda dəbə düşür. Psixoloqlar N.Hartman, A.Meynun, M.Veber və başqaları insanda psixoloji təlabat və rahatlıq (komfort) əxlaqı sərvətin mənbəyi hesab edir. Əxlaqı sərvət həm də bir növ müstəqildir, o şəxsiyyət üçün varlıq norması ola bilər. Aksilogiya belə bir müddəanı müdafiə edirdi ki, insanlar qarşılıqlı əlaqə və münasibətləridə xeyr, ədalət, xoşbəxtlik, şərəf, ləyaqət, səmimiyyət, təvazükarlıq, nəzakət və mərhəmət kimi mənəvi sərvətlərə ehtiyac duyur, ictimai birgə yaşayışda bunlardan istifadə etmək zərurəti qarşınında qalır.

Bu dövrün etikası insanların davranma tərzini, əməl və niyyətlərini tənzimləyə biləcək qaydalar, onlara verilməli hüquqlar, yeni etik kodekslər məsələsinə mühüm əhəmiyyət verir, eyni zamanda fəaliyyət və idarəetmə etikasına dair normativləri işləyib hazırlamağa böyük maraq göstərir. Məsələ beynəlxalq, regional, milli, içtimai, siyasi və dövləti qurumlar səviyyəsinə çıxır. BMT-nin bəzi humanitar qurumları (İşgəncələrə Qarşı Komitə, İnsan Hüquqları Komitəsi, Ümumdünya Səhiyyə Təşkilatı), Avropa İnsan Hüquqları Konvensiyası insan haqlarının səmərəli müdafiəsini təmin etməkdən ötrü beynəlxalq aktlar hazırlayır və onlarda etik kontekst mühüm yer alır. Dünya dövlətləri tərəfindən atılan və müəyyən etik məzmun daşıyan bu kimi addımlar yeni normativ etikaların yaradılmasına böyük təkan verdi. Yeni

etikanın tələblərindən biri də bu idi ki, qəbul edilən etik qayda və hüquqlara, etik kodekslərə çox ciddiliklə riayət edilməlidir, etik qaydalar üçün istisnalar yoxdur və olmamalıdır. Etik düşüncənin, etiк davranışın, mənəvi normativlərin bütün insanlar üçün faydalı olduğunu nəzərə alınmalı, diqqətdə saxlanılmalıdır.

Müasir dövr biliklərin geniş inteqrasiyası və yeni sintezləri dövrü kimi də xarakterizə olunur. İyirminci əsrin ortalarından bəri cəmiyyətin həyatında, onun mədəni və elmi-texniki düşüncə tərzində, əməli naliyyətlərində və əmin-amanlığının təmin olunmasında nisbi dirçəliş və tərəqi bərqərar olur. Siyasi, iqtisadi, mədəni və mənəvi baxımından çox mürəkkəb, həm də xeyli ziddiyyətli olan belə bir şəraitdə insan-insan, insan-təbiət, insan – canlı aləm münasibətləri necə olmalıdır, insan hansı mədəni, əxlaqi və hüquqi dəyərlər zəminində yaşamalıdır, insanların öndər niyət və məqsədləri nələrə yönəlməlidir, bu kimi suallar fərdi (personal) düşüncə tərzini aşaraq milli və ümumibəşəri problem səviyyəsinə qədər yüksəlməli idi. Elmi-texniki və tibbi tərəqinin insan psixologiyasına, adamların davranış motivlərinə, emosional durumuna, əməli fəaliyyətinə və şüuruna təsiri heç vaxt bir mənalı olmayıb. Bu tərəqi müasir sivlizasiyanın bir növ rifah mənbəyi olmaqla yanaşı, həm də insan, onun yaşama mühiti, mədəni-ekoloji şəraiti, sağlamlığı üçün təhlükələr də yaradırlar. Əsas təhlükə təbiətin maddi və bioloji srukturunun pozulmasına, insan davranışının gözlənilməz əyintilərinə gətirib çıxarır. Həyat təhlükəsizliyinin çox ciddi olması ekoloji hərəkət ideologiyasını ön plana çıxartrdı. Təbii fəlakətlərin və xəstəliklərin qurbanları azmış kimi, insanların özləri özlərini və digər canlı varlıqları kütləvi sürətdə məhv etmələri, səhiyyənin təşkilində, tibbin inkişafında problemlər, müxtəlif sənayə sahələrində böyük həcmlərdə hasil edilən zərərli tulantılar, milyonlarla maşın və digər yanacaq mühərriklərinin havaya püskürdüyü acı tüstü və ziyanlı qaz qarışıqları müasir cəmiyyətin yaşama tərzini, ətraf mühitin ekoloji vəziyyətini xeyli sarsıdır, ciddi təbii narahatçılıq doğurur, insanlar qarşında yeni problemlər yaradırdı. Bütün bu real amillər və şəraitlər elmi təfəkkürün üzərinə дя böyük yük qoyurdu, onu yeni idraki ümumiləşdirmələrə, yeni elmi sintezlərə məcbur edirdi. Keçən əsrin ortalarından başlayaraq insanşünaslıq elmlərə çox yaxın olan, onlarla qaynayıb-qarışan yeni inteqrativ elmi-prakrik sahələrin yaradılması və inkişaf etdirilməsi də bu səbəblərə görə idi. Onlardan biri də Bioetika idi.

Bioetika qərbin biologiya və tibb sahəsində çalışan alimlərin təşəbbüsü ilə yarandı yeni məzmun daşıyan etik təlim kimi meydana gəldi. Buna qədər Avropada və Amerikada evalyosion etika, naturalistlik etika, "həyata pərəstiş" etikası kimi yeni baxışlar sistemi mövcud idi. Vaxtilə filosof və təbiətşünas Benedikt Spinoza "Etika" əsərində göstərirdi ki, mən insanın şövq və hərəkətləri barədə elə danışmalıyam ki, sanki mən həndəsi cismlər, səthlər və xəttlər haqqında danışıram. Naruralistlik etik nəzəriyyələr isə israr edirdi ki, əxlaqi prinsiplərin kökündə təbii əsaslar (kosmik, bioloji, psixoloji, tibbi əsaslar) durmalıdır, təbiət elmlərinin və biososial analizlərin nailiyyətlərinə, təbiətşünaslığın və sosiologiyanın bəzi fundamental məsələlərin ətrafında gedən müzakirələrə söykənməlidir. "Həyata pərəstiş" etikası mütəfəkkir-həkim, Beynalxalq Nobel Sülh mükafatı laureatı A.Şveyserin adı ilə bağlı idi. Şveysərə görə həyat qarşısında pərəstiş, ehtiram hamının əxlaqı prinsipi olmalıdır. Bu prinsip bəşəriyyətin etik dirçəlişinin, universal etik normalarının hazırlanmasının əsasına çevrilməlidir "Mədəniyyətin fəlsəfəsi, mədəniyyət və etika" əsərində (1923) Şveyser insan üçün belə bir etik formulu təklif edir: Mən həyatam, yaşamaq istəyən həyat içində yaşamaq istəyirəm. O adam ki, həyatı qoruyur, o yaxşıdır, o adam ki, həyatı zədələyir və pozur - o pisdir. Hər kəs başqası naminə öz həyatının bir parçasını bəxş etməlidir. Ali və ibtidai həyat, daha qiymətli və az qiymətli həyat arasında uçurum, dərin fərq yoxdur. Heç bir həyat formasına, o cümlədən primitiv varlıqlara belə ikrah hissiylə baxmaq olmaz, onları ağılsızcasına məhv etmək günahdır. Kim bilir, əbədi həyat ağacının bu və ya digər budağı bu təbiət üçün nə qədər qiymətlidir. İnsanın dünyada varlığı zorakılıq, qəddarlıq, aclıq, müharibələr, təbiətin proqresivləşən ölümü ilə müşayyət olunmamalıdır. Nobel mukafatı laureatı etoloq K.Lorens isə bioloji əxlaq konsepsiyasını irəli sürür və gələcək bioetika elminin maraqlarının heyvanların davranışı haqqında elm olan etologiya ilə qovuşdurmağa çağırırdı.

Bioetika termini ilk dəfə amerikan bioloqu və onkoloqu V.R.Potter tərəfindən 1969-cu ildə elmə daxil edilmişdir. O bioetika məfhumunu biologiya + etika mənasında və ya bioloji etika kimi səsləndirməyib. Burada "bio" ifadəsi həyata aid olan mənada işlədilmişdir. "Etika" termini də Aristotelin dilində xasiyyət, adət, vərdiş, ruhi və ya mənəvi inanc, real davranma və idrak məqsədli səbəblər, rifah mənasında işlədilən leksik ifadələrdən törənmədir və eyni zamanda o dövrün öyüd-nəsihət praktikasında, təbibliyində, fəlsəfə və hüquq sahəsində işlək terminlərdən biri olmuşdur, daha çox əxlaq, mənəviyyat sferasına aid edilmişdir. Bioetikanın meydana gəlməsini şərtləndirən mühüm səbəblərdən biri həkimlərin peşəkar fəaliyyəti zamanı ortaya çıxan və tez-tez müzakirə mövzusuna çevrilən əxlaqı-mənəvi və ya deontoloji problemlər olmuşdur. Bu problemlər çox vaxt geniş

ictimaiyyətdən gizli olaraq müzakirə edilirdi. Təbabət, əsrlər boyu insanların şüurunda xəstəyə yüksək humanist qayğı bəsləmək ideyaları təbliğ edən və həyatda bu ideyalara riayət olunmasına çalışan peşə sahəsi kimi nüfuz və hörmət qazanıb. Lakin elmi-təcrübi, maddi və texniki təminat baxımından daima yüksələn, bir çox xəstəliklərə qarşı radikal həllilər tapan müasir tibb, eyni zamanda öz əvvəlki simasını qismən itirməyə başladı. Qeyri-adi və gizli tibbi-bioloji tədqiqatlar aparan, komersiya və biznes məqsədləri güdən bəzi həkimlər öz yolundan azdılar, xəstələr üzərində, onların razılığı olmadan və iradəsinin əksinə olaraq, tibbi təcrübələr aparmaqda maraqlı olublar, tibbi etikaya, "Hippokratin andına məhəl qoymayıblar. 20-ci əsr tibb tarixində baş vermiş və illər keçəndən acıqlanmış bu kimi faktlar geniş ictimaiyyətin haqlı təşvişinə, narazılığına səbəb olmaya bilməzdi. Məşhur Nyurenberq Beynalxalq Məhkəmə prosesi zamanı alman nasist-həkimlərə qarşı qaldırılan ittihamlarda göstərilirdi ki, onlar ikinci dünya müharibəsi gedişində faşist Almaniyasına deportasiya edilmiş yüz minlərlə mülki şəxslər, uşaqlar, əsir edilmiş hərbiçilər üzərində konslaqerlərdə qəddar tibbi təcrübələr aparmış, yetmiş minə yaxın insan bu yolla ölümə məhkum etmişlər. Başqa bir fakt 1967-ci ildə Cənubi Afrika Respublikasında professor K.Bernardin xəstəyə ürək köçürmə cərrahi əməliyyatından xeyli sonra (bu əməliyyatda klinik ölüm halında olan və hələ tam can verməmiş bir qadının ürəyini başqa xəstəyə köçürmüşdü) transpantalogiya elmi və praktikası ictimai dedi-qoduların mövzusunda çevrildi. İnsandan insana və ya heyvandan insana orqanların öçürülməsi bir sıra etik problemləri ortaya qoydu. ABŞ-ın və Avropanın bəzi klinikalarında iri formasept şirkətlərin təklif etdıkləri və ilk təcrübi yoxlamalardan keçirilmiş şübhəli preparatların ruhi xəstələr və yoluxucu xəstəliklərə tutulan insanlar üzərində gizlicə sınaqlardan çıxarılması, bu cür preparatların geridə qalmış Afrika və Asiya ölkələrində böyük həcmlərdə satılması faktları da açıqlandı. İngiltərədə və ABŞ-da biotibbi və evginik məqsədlər güdən embrioloji tədqiqatlar, gen mühəndisliyi, klonlaşdırma və süni mayalanma yolu ilə orqan və toxumaların hazırlanması, insanda və ya heyvanda süni repraduksiya texnologiyaları üzərində işlər haqqında faktlar da geniş içtimaiyyətə məlum oldu və neqativ əks-səda doğurdu. Keçmiş SSRİ-də nüvə silahı sınaqları bəzən əhalisi seyrək olan rayonlarda, əlalini xəbərdar etmədən, həyata keçirilməsi faktları da üzə çıxmışdı. Bütün bu antihumanist xarakterli biotibb eksperimentlər bioetika üzrə sözü keçən dövlət və içtimai təşkilatların, beynalxalq assosiosiyaların yaradılmasına böyük təkan verdi. Keçən əsrin 60-cı illərinin əvvəlində ABŞ-ın Sietli şəhərində "Süni böyrək" mərkəzi yanında etik komitə yaradıldı və komitə süni böyrək aparatlarında hemodializə məruz qoyulacaq xəstələrin seçimi ilə məşğul idi. İlk biotik milli komitələt Avstraliya və Yeni Zenlandiyada, sonralar isə ABŞ-da, Kanadada, bəzi Avropa ölkələrində, 90-cı illərdən başlayaraq Russiyada, Yaponiyada və Çində yaradıldı (Лапухин, 2001). 1993-cü ildən Beynalxalq Bioetik Assosiasiya fəaliyyət göstərir. 94-cü ildən etibarən Azərbaycanda UNESKO xəttiylə Bioetika, Elmi Biliklər və Texnologiyaların Etikası üzrə Milli Komitə fəaliyyət göstərməyə başladı. Bioetika haqqında ilk fundamental əsərlərin işıq üzü görməsi 1974-cü ildən başlanır. V.R.Potterin "Bioetika: gələcəyə körpü" adlı məşhur kitabı (1974) geniş oxucuların böyük marağına səbəb olmuşdu. Potterin fikrincə, bioetika bu, bioloji biliklərin və insan dəyərlərinin birliyi, onun yeni konsepsiyasıdır. ABŞ-da nəsr edilən dörd cildlik "Bioetika Ensiklopediyası" (1978, 1995). B.T.Liroy Noltersin "Bioetikada müasir baxışlar" (1994), Ç.Bernard, Ç.Valver və D. Klozerin "Bioetika: Əsaslara qayıdış" (1997), B.T.Liroy və F.Ceymsin "Biotibbi etika" (2003), A.N.Orlovun "Kilinik bioetika" (2003), Azərbaycan akademik nəşri olan "Bioetika" (2009) kimi əsərlər ictimaiyyəti qayğılandıran bir sıra biotik məsələlər barədə bilgiləri əks etdirir. Beynalxalq aləmdə bioetikaya dair xüsusi jurnallar çap olunur. Onlardan "Etika üzrə Komitələrin və Səhiyyə etikasının Beynalxalq jurnalı", "Nəzəri tibb və fəlsəfə jurnalı", "Səhiyyə etikası üzrə Kembric kvartal jurnalı" göstərmək olar. Son illərdə bioetika üzrə vaxtaşırı beynalxalq elmi konqreslər, simpoziumlar və konfranslar keçirilmişdir. Bu elmi forumlarda biotibb təcrübələrin etik tərəfləri, həkimlərin və səhiyyə sistemi qarşısında qoyulan tələblər, təcrübələrdə istifadə edilən heyvanlara humanist münasibət, ekoloji-mədəni mühit problemləri tez-tez müzakirə edilib (Ağayev və Hacıyev, 2003, 2004-2005; Копаладзе, 2009). Bioetika ən müasir bilik sahələrindən biridir. Insanları yeni ruhda düşündürən, onlarda həyata və öz əməllərinə yeni baxışları formalaşdıran, elmi-fəlsəfi, biotibb və tibbi-praktik yönlü, təbiətə, insanlara və küllü heyvanlara qəddarcasına yanaşma metodları lənətləyən və onlara qarşı mübarizə aparan, mərhəmət və xeyrxahlığa çağıran yüksək əxlaqi-mənəvi, dəyərləri təbliğ edən bir ideologiya kimi inkişaf edir. Sonda yazıçı və səyyah Antuan Sent Ekzüpürinin çox sadə və həm də dərin mənalı sözlərini xatırlamaq isrərdik. O deyib: əgər kimsə çəməndə gülü dərib və onu qoxlayıb atırsa, bu əxlaqsızlıqdır, əgər kəndçi çəməni biçib öz mal-qarası üçün ot tədarük edirsə, ona haqq qazandırmaq olar…

ƏDƏBİYYAT

Ağayev T.M., Hacıyev Ş.M. (2003) Tibbi-bioloji təcrübələrə bioetik baxış: nəzəri-praktik aspektlər. Dirçəliş - XXI əsr: 82-83.

Ağayev T.M., Hacıyev Ş.M. (2004-2005) Fizioloji və biokimyəvi tədqiqatlarda bioetik prinsip və normalar haqqında Dirçəliş - XXI əsr: 62.

Богомолов А.С. (1985) Античная философия, М., МГУ: 177 с.

Гусейнов Н.А. (1985) Введение в этику. М., МГУ: 208 с.

Иванов В.Г. (1980) История этики Древнего мира. Под ред. В.Г. Иванова. Л., Изд-во Ленингр. ун-та: 224 с.

Копаладзе Р.А. (2009) Биоэтика и эволюция биомедицинского экеперимента от Алкемона до Павлова. Успехи физиологических наук, М.: Наука **40(3):** 89-104.

Лапухин Ю. (2001) Биоэтика в России. Вестник РАН **71(9):** 771-774.

Мусский И.А. (2000) Сто великих мыслителей, М., Вече: 687 с.

Орлов А.Н. (2003) Клиническая биоэтика: избранные лекции. М., Медицина: 359 с.

Урбанаева И.С. (1988) Основания етического знания и единая наука. Новосибирск, Наука: 48 с.

М.Т. Аббасова, Ш.М. Гаджиев, Т.М. Агаев

Путъ от Этики к Биоэтике: Вызов Новому Образу Рассуждения, Милосердию и Добродетелю

В статье рассматриваются исторические, философски-этические, естественнонаучные и медико-биологические предпосылки и аспекты возникновения и развития биоэтики как новой науки, основные цели и назначения ее в современной жизни, проблемы и задачи, стоящие перед ней при сегодняшней реальности морали и нравственности общества и человека.

M.T. Abbasova, Sh. Hadjiyev, T.M. Agayev

The Way from Ethics to Bioethics: Challenge to Novel Way of Consideration, Mercifulness and Virtue

The article concerns historical, philosophy-ethical, natural scientific and medico-biological backgrounds and aspects of advent and development of bioethics as a new science, its main goals and duties in the modern life, problems and tasks to be solved by it in today realities of morality of the society and humans.